AZƏRBAYCAN www.azerbaijan-news.az







# Qarabağ əlilləri tək deyil...

## Dövlət onların protez-ortopedik bərpa xidməti ilə təminat səviyyəsini daim yüksəldir





**“Müharibədə xəsarət almış, yaralanmış, şikəst olmuş, bədəninin bir hissəsini itirmiş adamlar da var. Onlar yaşayır, cəmiyyətimizin üzvüdürlər. Müharibə nəticəsində cəmiyyətimizdə belə adamların sayı artıb. Bu da bizim qarşımıza yeni vəzifələr qoyur. Cəmiyyətimizdə olan məhrumiyyətlərə məruz qalmış bütün insanlara, xüsusən müharibə əlillərinə kömək etmək, onların yaşaması, əmək fəaliyyəti ilə məşğul olması üçün şərait yaratmaq, onların əlilliyini aradan götürmək başlıca vəzifəmizdir”.**

***Heydər ƏLİYEV***

*İnsanın dayaq-hərəkət funksiyasını itirməsi onun sərbəst yaşam tərzi, hərəkət və fəaliyyəti üçün nə qədər çətin, ciddi maneə olduğunu izah etməyə ehtiyac yoxdur. Ölkəmizdə əlilliyi olan şəxslərin, o cümlədən Qarabağ müharibəsi əlillərinin cəmiyyət həyatında iştirakının stimullaşdırılması istiqamətində aparılan siyasətin əsas hədəflərindən biri səmərəli protez-ortopedik bərpa xidmətləri vasitəsilə onlarda ağır fiziki məhdudiyyətin aradan qaldırılmasına, dayaq-hərəkət sisteminin itirilmiş funksiyalarının bərpasına yönəlib. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Protez-Ortopedik Bərpa Mərkəzi bu sahədə məqsədyönlü və səmərəli fəaliyyəti, güclü və daim müasirləşən maddi-texniki bazası ilə seçilir.*

Əlilliyi olan şəxslərin, o cümlədən Qarabağ müharibəsi əlillərinin protez-ortopedik məmulatlara olan ehtiyaclarının aradan qaldırılması üçün mühüm tədbirlər həyata keçirilib. Başqa sözlə, Azərbaycan Prezidenti İlham Əliyevin sosialyönümlü siyasət kursu əlilliyi olan şəxslərin maddi və mənəvi tələbatlarının daha dolğun şəkildə ödənilməsi, o cümlədən onların reabilitasiya vasitələri və protez-ortopedik məmulatlarla təminatı daha da yaxşılaşıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Protez-Ortopedik Bərpa Mərkəzində əsaslı təmir işləri aparılıb və bu istiqamətdə işlər indi də davam edir.

Protez-Ortopedik Bərpa Mərkəzinin direktoru Asif Məcidov söhbət zamanı bildirdi ki, əlilliyi olan şəxslərin, eləcə də Qarabağ müharibəsi zaəlilliyi olan şəxslərə və sağlamlıq imkanları məhdud uşaqlara verilən reabilitasiya vasitələri və protez-ortopedik məmulatların sayı 2014-cü illə müqayisədə 49 faiz, o cümlədən əlil arabalarının sayı 2,2 dəfə çox olub. Cari ilin ilk rübündə isə bu göstəricilər ötən ilin yanvar-mart ayları ilə müqayisədə müvafiq olaraq 16,7 faiz və 2,2 dəfə çox olub”.

Qarabağ müharibəsi əlillərinə daim xüsusi diqqət və qayğı ilə yanaşıldığını vurğulayan A.Məcidov onu da bildirir ki, mərkəz tərəfindən protez-ortopedik bərpa xidməti ilə təmin olunanların ötən il 749, cari ilin yanvar-mart aylarında isə 229 nəfərini məhz respublikamızın ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslər təşkil edib: “Yəni ötən il və cari ilin ilk rübündə 978 nəfər Qarabağ müharibəsi əlili ümumilikdə 5663 protez-ortopedik mə-

2013-cü ilin dekabr ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq əmrinə əsasən, mərkəzin mütəxəssislərindən ibarət səyyar tibbi-texniki briqada yaradılıb. Briqada təkcə ötən il respublikanın rayon və şəhərlərində 1800 nəfərə yaxın əlilliyi olan şəxsə və sağlamlıq imkanları məhdud uşağa səyyar formada protez-ortopedik bərpa xidmətləri göstərib. Onların bir qismi də Qarabağ müharibəsi əlilləri olub.

Hər ay rayon və şəhərlərə ezam olunan briqada həm əvvəlcədən qeydiyyata alınmış, həm də birbaşa müraciət edən müvafiq şəxsləri ehtiyac duyduqları protez-ortopedik bərpa xidmətləri ilə təmin edir. Bir sıra hallarda bölgələrdə yaşayan və əlil arabası almaqdan ötrü paytaxta gəlib-getmək çətinliyi olan şəxslərə və sağlamlıq imkanları məhdud uşaqlara əlil arabaları yaşadıqları







Ötən əsrin 90-cı illərinin əvvəllərindən fəaliyyət göstərən mərkəzin protez-ortopedik bərpa imkanlarının genişləndirilməsi ümummilli lider Heydər Əliyevin diqqətində dayanan məsələlərdən biri olub. 1995-ci ilin yanvar ayında Protez-Ortopedik Bərpa Mərkəzinə gəlib əlilliyi olan insanlara göstərilən xidmətin vəziyyəti ilə yaxından tanış olan ulu öndər Heydər Əliyev burada görülən işlərin cəmiyyət üçün, xüsusən də Qarabağda gedən döyüşlərdə əlil olmuş insanların dayaq-hərəkət funksiyalarının bərpası üçün çox gərəkli, əhəmiyyətli olduğunu qeyd edərək deyib: “Əlil bir adamın əli, ayağı, yaxud başqa orqanı olmadığı bir halda, onu bərpa etmək, buna imkan yaratmaq, belə adamları əmək qabiliyyəti olan bərabərhüquqlu insan etmək, yəni, bərabər yaşayış, əmək fəaliyyəti səviyyəsinə çatdırmaq nə qədər xeyirxah, nə qədər şərəfli işdir!”

Sonrakı dövrdə müəssisənin fəaliyyətinin daha da gücləndirilməsi, manı əlil olmuş həmvətənlərimizin dayaq-hərəkət sisteminin itirilmiş funksiyalarının bərpası, onların protez-ortopedik məmulatlarla təmin olunması mərkəzin əsas fəaliyyət istiqamətidir: “Müəssisəmizin istehsal sahəsində Qarabağ müharibəsi əlilləri və digər kateqoriyalara aid əlilliyi olan vətəndaşlar üçün müasir texnologiya əsasında protez-ortopedik məhsullar, protez, ortez, korset, ortopedik ayaqqabı və digər reabilitasiya məmulatları istehsal olunur. Burada, Gəncə şəhərindəki filialımızda və Naxçıvan istehsalat sahəsində ötən il və cari ilin birinci rübü ərzində hazırlanan 41,3 minə yaxın reabilitasiya vasitəsi və protez-ortopedik məmulat əlil şəxslərin istifadəsinə verilib. Onlardan 1826-sı əlil arabası, 1396-sı aşağı ətraf protezi, 210-u yuxarı ətraf protezi, 1402-si aşağı ətraf ortezi, 2264-ü qoltuqaltı ağac, 4291-i əsadır. Əlillərə 4832 cüt ortopedik, 4510 cüt protez ayaqqabı, 697 eşitmə aparatı da verilib. 2015-ci ildə mulatla, reabilitasiya vasitəsi, o cümlədən 39 əlil arabası ilə təmin edilib. Bu təbəqədən olan şəxslər ehtiyac duyduqları halda dərhal protez-ortopedik məmulatla, reabilitasiya vasitəsi, həmçinin əlil arabası ilə təmin edilirlər”.

Ambulator xidmətlərlə yanaşı, mərkəzin stasionar bölməsi də fəaliyyət göstərir. Bu bölmədə bütün növ amputasiya olunmuş əlillərin protezləşməyə hazırlanması, onlara protezlə hərəkət edilməsinin öyrədilməsi işləri aparılır. Onurğa sütunu zədələnmiş spinal əlillərin reabilitasiyası, skoliozlu uşaqların reabilitasiyası, uşaqların serebral iflicinin fəsadlarının, anadangəlmə bəzi qüsur və deformasiyaların aradan qaldırılması və s. istiqamətlərdə bərpa-müalicə tədbirləri həyata keçirilib.

Bölgələrdə yaşayan əlilliyi olan şəxslərin, xüsusən Qarabağ müharibəsi əlillərinin səyyar şəkildə protezortopedik bərpa xidmətləri ilə təmin olunması işləri də aparılır. Hələ ünvanlarda təqdim edilir. Bu tədbirlər həmin insanların artıq ehtiyac duyduqları xidmətlərdən ötrü zəhmət və həm də xərc çəkərək, müəyyən məsafə qət edərək Bakıya gəlməK çətinliyinin aradan qalxmasına yönəlib.

Mərkəzdə protez-ortopedik məmulatların tibbi-texniki və biomexaniki sınaqların keçirilməsi, protezləşdirmənin keyfiyyətini müəyyənləşdirmək üçün müasir metodların işlənib hazırlanması, bu sahələr üzrə mütəxəssislərin yetişdirilməsi işləri də aparılır. Protez-optopedik məhsulların istehsalında yeni konstruksiyaların, texnologiyaların və elmi nailiyyətlərin tətbiqinə də geniş yer verilib. Müəssisədə çalışan mütəxəssislərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirilir, onlar üçün müvafiq kurslar təşkil olunur.

***Elgün MƏNSİMOV,***
***“Azərbaycan”***